DOI: 10.36719/AEM/2007-2020/54/117-121

**Samirə İlham qızı Ziyadzadə**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ziyadzade06@gmail.com

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, qida məhsulları, istehsal prosesi*
***Key words****: food security, food, manufacturing process*
***Ключевые слова:*** *продовольственная безопасность, продукты питания, производственный процесс*

## Giriş

Ərzaq təhlükəsizliyi bütünlükdə, ölkənin iqtisadi təhlükəsizlik sistemində çox vacib yerə malikdir. Belə ki, ərzaq təhlükəsizliyi kənd təsərrüfatının lazimi səviyyədə inkişaf etməsi ilə sıx bağlıdır. Eyni zamanda ərzaq təhlükəsizliyinin təmin edilməsinin strateji problem kimi ön plana çəkilməsinin əsas səbəbi odur ki, makroiqtisadi sabitliyin pozulma ehtimalı, iqtisadi inkişaf problemlərinin daima mövcud olması, əhalinin ərzaqla təmin olunmasının xarici bazarlardan asılılığının ümumilli mənafelərə ziyan vura bilməsidir. Qeyd etmək lazımdır ki, ərzaq təhlükəsizliyinə bir sıra amillər təsir edir. Belə ki, daxili bazarda yerli istehsalın artırılması mühüm əhəmiyyət kəsb edirsə, bu zaman bazarda məhsulun qiyməti, məhsulun keyfiyyəti, əhalinin alıcılıq qabilliyyəti kimi amillər nəzərə alınnmalıdır.Əgər əhalinin alıcılıq qabiliyyəti aşağı və bazarda qiymətlərin yüksək olarsa, bu vəziyyət ərzaq təhlükəsizliyinin təmin olunmasına mənfi təsir göstərər. Ərzaq təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayan daxili ərzaq bazarının xarici rəqabətin neqativ təsirlərindən qorunması olduqca vacib tədbirlərdən biridir. Bazar iştirakçılarının maraqlarını təmin etmək üçün ərzaq bazarı düzgün tənzimlənməlidir. Bazar şəraitində iqtisadçılar aqrar-sənaye istehsalı probleminə xüsusilə önəmli yanaşmalıdırlar.

İqtisadi münasibətlərin kor təbii şəkildə tənzimlənməsinə yol verilməsi ölkənin ərzaq təhlükəsizliyi baxımdan zərərli tendensiyaların yaranması ilə nəticələnər. Kənd təsərrüfatının ixtisaslaşma məsələləri, struktur dəyişiklikləri, ərzaq bazarının bütün maraqlarının qorunub saxlanması, məhsulun istehsalı şərtlərinin yaxşılaşdırılması daima dövlətin diqqət mərkəzində olmalıdır. Dövlətin aqrar siyasətinin tərkib hissəsi olan ərzaq təminatının kafi səviyyədə saxlanılması, həmçinin cəmiyyət üzvlərinin ərzaq məhsullarından fizioloji normalara uyğun olaraq istifadə edə bilməsi üçün iqtisadi şəraitin lazimi səviyyədə yaradılması mühüm rola malikdir. (Quliyev.E,2018)

## Ölkədə kənd təsərrüfatı məhsullarının istehsalının təhlili.

Bildiyimiz kimi, ərzaq təhlükəsizliyi məsələsinin həlli kənd təsərrüfatı və yeyinti məhsullarının yüksək səviyyədə təmin olunması və bu sahədə rəqabət qabiliyyətli istehsalın stimullaşdırılmasından keçir. Odur ki, aqrar sahədə dövlət siyasətinin ən vacib istiqamətlərindən biri yüksək məhsuldarlığın təmin olunması, kənd təsərrüfatının gəlirli sahələrinin inkişaf etdirilməsi, yerli məhsulların rəqabət qabiliyyətinin artırılmasıdır.

**Cədvəl 1: Əsas ərzaq məhsullarının istehsalı, adambaşına il ərzində (kq)**

| İllər | Taxıl (təmiz çəkidə) | Kartof | Tərəvəz | Bostan bitkiləri | Meyvə və giləmeyvə | Ət (kəsilmiş çəkidə) | Süd | Yumurta | Balıq |
|---|---|---|---|---|---|---|---|---|---|
| **2008** | 281 | 124 | 141 | 47 | 82 | 26 | 158 | 126 | 2,4 |
| **2009** | 332 | 111 | 137 | 47 | 81 | 26 | 162 | 137 | 2,1 |
| **2010** | 218 | 107 | 133 | 49 | 82 | 27 | 172 | 132 | 2,1 |
| **2011** | 265 | 104 | 134 | 53 | 85 | 28 | 176 | 112 | 5,2 |
| **2012** | 298 | 106 | 133 | 47 | 88 | 30 | 185 | 134 | 6,3 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **2013** | 310 | 107 | 133 | 46 | 92 | 31 | 193 | 151 | 5,5 |
| **2014** | 247 | 87 | 126 | 47 | 90 | 31 | 197 | 166 | 5,3 |
| **2015** | 307 | 88 | 134 | 51 | 93 | 31 | 202 | 163 | 5,4 |
| **2016** | 310 | 94 | 132 | 48 | 92 | 31 | 209 | 167 | 6,6 |
| **2017** | 293 | 94 | 144 | 45 | 98 | 33 | 208 | 176 | 6,6 |
| **2018** | 329 | 92 | 155 | 41 | 103 | 33 | 212 | 171 | 6,3 |

**Mənbə:** Dövlət statistika komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi adambaşına taxıl istehsalında 2008-ci ilə nisbətən 2018-ci ildə 17 % artım olmuşdur. Ölkəmizdə taxıl istehsalında əsas pay Şəki-Zaqatala iqtisadi rayonuna məxsusdur. Lakin 2014 və 2017-cı illərdə əsasəndə Şəki və Zaqatala rayonlarında əkin sahələrinin azaldılması, nəticədə taxıl istehsalının azalmasına gətirib çıxarmışdır. Ölkəmizdə taxıl istehsalı hələ də lazimi səviyyədə deyildir. Taxıl ilə özünütəminetmə səviyyəsi əsasən Rusiya və Qazaxıstandan idxal hesabına təmin edilir. Eyni zamanda son illərdə kartof əkin sahəsi azaldığından istehsalda azalma baş vermişdir. 2008-ci illə müqayisədə 2018-ci ildə adambaşına kartof istehsalı 26 % , öncəki ilə nisbətdə isə 2 % aşağı düşmüşdür. Son illərdə tərəvəz üçün əkin sahələrinin azalmasına baxmayaraq məhsuldarlıq yüksəlməyə doğru gedərək tərəvəz istehsalında artıma səbəb olmuşdur. 2018-ci ildə adambaşına tərəvəz istehsalı 2008-ci illə müqayisədə 9,9 %, öncəki ilə nisbətən isə 7,6 % artmışdır. Bostan bitkilərinin istehsalında isə 2018-ci ildə 2008-ci ilə nəzərən 12,8 % azalma müşahidə olunur. Meyvə bağlarının genişləndirilməsi nəticəsində meyvə istehsalı 10 il əvvəllə müqayisədə 25% artmışdır. Adambaşına ət istehsalında elədə böyük artım baş verməmiş, süd istehsalını isə 10 il öncə ilə müqayisə etsək 34 % artım olduğunu görərik.

Qeyd edək ki, bəzi ərzaq məhsullarının isehsalının artmasına baxmayaraq hələ də ərzaqla təminatın demək olar ki, müəyyən hisəsi idxal hesabına təmin olunur. Ölkəmizdə kartof istehsalçılarının əsas problemlərindən ən vacibi məhsullarını saxlamaq üçün anbarlarlarının olmamasıdır. Bu problem məhsul istehsalına kəskin mənfi təsir göstərir. Həmçinin meyvə idxalı da son illərdə artmışdır. 2018-ci ildə 2008-ci illə müqayisədə idxaldan asılılıq 9,6% yüksəlmişdir. Eyni zamanda ət və ət məhsullarının da idxalında artım baş vermişdir. Odur ki, ərzaq təhlükəsizliyinin yüksəldilməsi məqsədilə ərzaq məhsullarının idxalını müəyyən qədər əvəzləməyə imkan verə biləcək səmərəli tədbirlər işlənib hazırlanmalı və həyata keçirilməlidir.

### Ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirmə istiqamətləri

Ərzaq bazarının eləcə də bütünlükdə aqrar sahənin tənzimlənməsi dövlətin ərzaq müstəqilliyinə nail olmasının təminatıdır. Ölkəmizdə normal ərzaq bazarının fəaliyyəti baxımından kənd təsərrüfatının mövcud potensialından tam və effektiv istifadə olunması ilə yanaşı, kənd təsərrüfatı məhsullarının emalı sənayesi də inkişaf etdirilməlidir.

Ölkədə ərzaq bazarının tənzimlənməsi praktiki olaraq həyata keçirilməsi tənzimlənmə mexanizmi adlanan mexanizm üzərində qurulur. Məhz ölkədə ərzaq təhlükəsizliyi ərzaq bazarının tənzimləmə mexanizmini formalaşdıran iqtisadi alətlərin vasitəsiylə təmin olunur. Həmin mexanizmin tərkib elementlərinə tədarük intervensiyası, əmtəə intervensiyası, qiymət, dövlətin maddi yardım proqramları, dövlət girov əməliyyatları, satış kvotası və s. daxildir.

Əmtəə intervensiyası dedikdə, ərzaq bazarında qıtlığın qarşısını alınması və qiymətlərinin səviyyəsinin aşağı salınması məqsədilə dövlət tərəfindən strateji əhəmiyyətli ərzaq resurslarından lazım olduğu zamanda bazara məhsul müdaxiləsi nəzərdə tutulur. Tədarük intervensiyası o zaman tətbiq olunur ki, bazarda tələbatdan artıq ərzaq məhsulları təklifi vardır ki onu azaldılmasını, bazar kontukturunu sabitləşdirilməsini və qiymət səviyyəsini məhsul istehsalçılarının maraqlarına uyğunlaşdırılmasını təmin edir. Dövlətin ərzaq fondları da ərzaq təhlükəsizliyinin təmin olunması və ərzaq bazarının tənzimlənməsində böyük rola malikdir. Ərzaq fondları zəruri ərzaq ehtiyatlarının

yaradılmasına xidmət edir ki, dövlət bu ehtiyatlardan fövqaladə hallar zamanı, təbii fəlakət və müharibə şəraiti olduqda, həmçinin bazarda kəskin ərzaq qıtlığı və qiymətlərin sürətli artımı müşahidə olunarsa istifadə edir. (Əliyeva.A, 2013)

Dövlət əmtəə və tədarük intervensiyalarının həcmi və bu intervensiyalar çərçivəsində tədarük olunan ərzaq məhsullarının qiymətlərini özü təyin edir. Ərzaq məhsullarının qiymətlərində yaranmış qeyri-sabitliyin aradan qaldırılması üçün idxal-ixrac kvotaları, beynəlxalq əmtəə razılaşmaları kimi mexanizmlər vasitəsilə təsir göstərmək mümkündür.

Aparılan araşdırmalardan bu nəticəni çıxarıb deyə bilərik ki, kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimləməsi zamanı aşağıdakı amillərin təmin olunması zəruridir:

-  davamlı məhsul istehsalı stimullaşdırılmalıdır;
-  aqrar sektorda ölkənin strateji milli maraqları təmin olunmalıdır;
-  daxili ərzaq bazarının müəyyən iqtisadi vasitələrlə səmərəli və çevik şəkildə qorunmalıdır;
-  ərzaq məhsullarının maya dəyərinin aşağı salınmasına nail olmaqla istehlakçıların həmin məhsulları sərfəli qiymətlərlə almaq imkanının təmin olunmalıdır.

Ərzaq bazarının tənzimlənməsinin təkmilləşdirməsinin ən vacib istiqamətlərindən biri innovativ tədbirlərin həyata keçirilməsidir. Ərzaq bazarında innovasiya – sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin inkişafını təmin edən yeniliklərin tətbiqinə, yeni yaradılmış məhsulların və texnologiyaların rəqabət qabiliyyətinin artırılmasını təmin edən kompleks prosesdir. İnnovasiya sahibkarlığının inkişafı və təşəkkül tapması əmək qabiliyyətli əhalinin təhsil səviyyəsindən, innovasiya ideyası təklif etmələri ilə yanaşı onları praktiki olaraq tətbiq etməyi bacaran kadrların hazrlıq səviyyəsindən asılıdır.

Hazırda ölkəmizdə ərzaq bazarına tətbiq edilən innovasiya prosesləri, onların nizamlanması metodları kifayət qədər tədqiq edilməmiş və tam nəzəri-metodoloji əsaslara malik deyildir. Kənd təsəüfatı istehsalının innovasiyalı inkişafını sürətləndirilməsi üçün innovasiya prosesiin idarə edilməsini yüksək səviyyədə təmin etmək, aqrar sektorun elmi təminatı strategiyanının işlənib hazırlanmasında və bu strategiyanın reallaşdırılmasında Kənd Təsərrüfatı Nazirliyinin rolunu artırmaq lazımdır.

**Beynəlxalq təcrübə nəzərə alınmaqla daxili ərzaq ehtiyatlarının inkişaf perspektivləri**

Bildiyimiz kimi, ərzaq təhlükəsizliyinin təmin edilməsi isə hər bir ölkə üçün mühüm əhəmiyyət kəsb edən məsələdir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, səmərəli aqrar sahə formalaşdırmadan ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək mümkün deyildir**.**

Amerika Birləşmiş Ştatlarında kənd təsərrüfatı siyasəti bütöv bir qanunvericilik aktları sistemi ilə müəyyən edilir. Biotexnologiyalar vasitəsilə xəstəliklərə və quraqlıqa davamlı toxumlar yetişdirməyə əlverişli şərait yaratmışlar.Əkin sahələrində gübrələr və pestisidlər geniş istifadə olunur. Fermerin fəaliyyətinə kompüterlər nəzarət edir, bitkilər üçün ən yaxşı əkin sahələrinin müəyyən edilməsində və torpağın gübrələnməsində kosmik texnologiyalardan istifadə edilir. Eyni zamanda tədqiqatçılar daima, yeni qida məhsulları və onların yaradılmasının yeni metodlarını işləyib hazırlayırlar. (Abbasov.İ, 2013)

Ərzaq təhlükəsizliyinin təmin olunmasında və kənd təsərrüfatının inkişafında böyük təcrübəyə malik inkişaf etmiş ölkələrdən biri Almaniya Federasiyasıdır. Kiçik sahibkarlara dəstək strateji prioritetdir və Almaniya bu çərçivədə qadınlara xüsusi diqqət yetirir. Bu dəstək kənd təsərrüfatını daha məhsuldar və davamlı hala gətirmək və kənd təsərrüfat dəyərləri zənciri boyunca yeniliyi təşviq etməklə iqlim dəyişikliyinə uyğunlaşmanı inkişaf etdirmək məqsədi daşıyır. Kiçik miqyaslı fermerlərə yaşayış təsərrüfatından bazara artan məhsul istehsalına keçmək üçün dəstək verilir. Ədalətli və etibarlı mülkiyyət hüququ və torpaqdan istifadə hüququ, həmçinin qıtlığa qarşı davamlılıq təşəbbüsün digər diqqət mərkəzidir. Almaniyada ərzaq məhsullarının saxlanılması üçün dondurulmuş ərzaq bazarları fəaliyyət göstərir. Dondurulmuş ərzaq bazarının 2024-cü ilə qədər 15.770 milyard dollara çatacağı və proqnoz dövrü ərzində də artacağı gözlənilir. Bu alman istehlakçısı arasında mövsümi dondurulmuş qidaların populyarlığının artması, bu qida məhsullarının proqnoz dövrü ərzində böyüməsini şərtləndirən əsas amildir. Qoruma

texnologiyasının təkmilləşdirilməsi yolu ilə ərzaqların vitaminlərin saxlanması təmin edilir. Bundan əlavə, dondurulmuş məhsullar mürəkkəb soyuq saxlama texnologiyası sayəsində konservantlar olmadan daha uzun müddət saxlanıla bilər. (Aigner. İ, 2010)

Ərzaq bolluğunun yaradılması və ərzaq əlçatanlığının təmin olunmasında dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı sahələrinin intensiv maliyyələşdirilməsi mühüm amil olaraq diqqət mərkəzindədir. Burada vacib şərt odur ki, kənd təsərrüfatı layihələri lazimi səviyyədə və düzgün vaxtda maliyyələşdirilməlidir.

İnkişaf etmiş ölkələrin mövcud təcrübələrindən dinamik inkişaf yolunda olan Azərbaycanda da istifadə edilməsi ərzaq təhlükəsizliyinin təmin edilməsində, ümumilikdə kənd təsərrüfatı istehsalının inkişafında yüksək nəticələrə gətirib çıxarmasına imkan yaradacaqdır.

## Nəticə

Belə ki, ərzaq bazarının tənzimlənməsi zamanı iki mühüm məsələ daima diqqət mərkəzində saxlanılmalıdır. Birincisi odur ki, daxili tələbatın ödənilməsi üçün lazimi miqdarda və çeşiddə məhsul istehsal edilməli və anbarlaşdırılmalıdır. İkincisi məsələ isə ərzaq istehsalının özünümaliyyələşdirmə qabiliyyətinin davamlı olması üçün əlavə həcmlərin daha ucuz maya dəyərilə istehsal olunmasını təmin etmək məqsədilə dövlətin tənzimləmə tədbirləridir.

Beləliklə, araşdırmaların nəticəsinə və beynəlxalq təcrübəyə uyğun olaraq, ölkənin ərzaq təminatını yaxşılaşdırmaq üçün aşağıdakı istiqamətlər üzrə təşkilati-iqtisadi tədbirlər sisteminin həyata keçirilməsi zəruri hesab edilir:

✓ Mövcud əkinə yararlı torpaqlardan səmərəli istifadə olunmalı;

✓ Fövqaladə hallar və təbii fəalkətlər baş verən zaman ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə ehtiyat fondlarının yaradılması;

✓ Ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə əhalinin iqtisadi fəallığı artırılmalı, işsizlik səviyyəsi azaldılmalı və məşğulluq səviyyəsi yüksəldilməli;

✓ Ərzaq təminatı məsələsində yarana biləcək zərərlərin qarşısını almaq məqsədilə ətraf mühitin çirkləndirilməsinə yol verilməməli;

✓ Təhlükəsiz, keyfiyyət norma və standartlarına cavab verən ərzaq məhsularının əldə edilməsinə imkan yaradılmalı və əhalinin düzgün qidalanma seçimlərinin müəyyən olunmasına köməklik göstərilməli;

✓ Ərzaq təhlükəsizliyinin düzgün qiymətləndirilməsi üçün milli fizioloji normalar işlənib hazırlanmalı və tətbiq olunmalıdır.

✓ Eyni zamanda ərzaq bazarında tətbiq olunan innovasiya proseslərinin nizamlanması metodları daha da təkmilləşdirilməlidir. Kənd təsərrafatı və ərzaq məhsulları istehsal edən müəssisələrdə innovasiya fəaliyyətinin təkmilləşdirilməsi üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- innovasiya risklərinin sığortalanması;
- innovasiya fəaliyyətində fəal iştirak edən təşkilatlara iqtisadi dəstəyin olması;
- innovasiya proseslərinin hüquqi bazası, əsasən də innavatorların müəlliflik hüquqları qorunmalı;
- ərzaq məhsullarının keyfiyyət amili mütləq şəkildə gözlənilməli və tibbi standartların tələblərinə uyğunlaşdırılmalı;
- aqrar sektorun maddi-texniki təminatı eləcə də, texniki-servis xidmətləri yaxşılaşdırılmalı;
- ərzaq bazarında marketinq araşdırmaları davamlı olaraq intensivləşdirilməli və təkmilləşdirilməli, həmçinin yüksək səviyyəli yarmarkaların təşkili təmin edilməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı: http://www.stat.gov.az
2. Abbasov İ. (2013) “Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı”. Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 712 səh.
3. Əliyeva A.H. (2013) “Azərbaycan Respublikasinda ərzaq bazarının transformasiya problemləri”. Dissertasiya. Bakı
4. İbrahimov İ.H. (2016) “Aqrar sahənin iqtisadiyyatı”. (Monoqrafiya). Bakı, 655 səh.
5. Quliyev. E. (2018) “Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər”. Bakı, “Kooperasiya” nəşriyyatı. 479 səh.
6. Valeriya Anufriyeva (2019) “The state of food security and nutrition in the world”. Rome, p. 239
7. İlse Aigner (2010) “German Agriculture: Facts and Figures

**Development directions to ensure food security**

**Summary**

Food security is the provision of people with the necessary level of food for productive and healthy living conditions. The solution to this problem is, first of all, to reduce poverty, efficient use of food products and increase food security. From this point of view, the improvement of food supply has always been in the international spotlight throughout history. The article describes the socio-economic nature of food security and explores ways to ensure it. At the same time, the article discusses international experience. At the end of the study, based on research and international experience, suggestions and recommendations were made for the formation of a reliable food supply and the development of food security.

**Направления развития для обеспечения продовольственной безопасности**

**Резюме**

Продовольственная безопасность - это обеспечение людей необходимым уровнем продовольствия для продуктивных и здоровых условий жизни. Решение этой проблемы в первую очередь связано с сокращением бедности, эффективным использованием продовольствия и повышением продовольственной безопасности. С этой точки зрения улучшение питания всегда было в центре внимания на протяжении всей истории. В статье описывается социально-экономический характер продовольственной безопасности и исследуются способы ее обеспечения. В то же время в статье рассматривается международный опыт. В конце исследования, на основе исследований и международного опыта, были сделаны предложения и рекомендации по формированию надежного продовольственного обеспечения и развитию продовольственной безопасности.

**Rəyçi: i.f.d.M.Kərimzadə**

Göndərilib: 14.05.2020 Qəbul edilib: 16.05.2020